Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

«525 KİTAB» seriyası

İlqar fəhmi

# «Yenə də» qəzəllər

*(1999-2003)*

Bakı – Mütərcim – 2010

**Azərbaycan Respublikası**
**Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə**

«525-ci qəzet»in «525 Kitab» seriyası
«Dünya ədəbiyyatı» dərgisinin texniki iştirakı ilə

Seriyanın rəhbəri: **Rəşad Məcid**,
«525-ci qəzet»in baş redaktoru,
Azərbaycan Yazıçılar Birliyinin katibi

Seriyanın tərtibçisi
və redaktoru: **Səlim Babullaoğlu**
«Dünya ədəbiyyatı» dərgisinin
baş redaktoru

Nəşrin redaktoru: **Əliş Mirzallı**

Dizayner: **Mətanət Qaraxanlı**
**Vəfa Əhmədova**

**İlqar Fəhmi.** «Yenə də» qəzəllər (1999-2003).
/ «525 Kitab» seriyası. – Bakı: Mütərcim, 2010. – 52 s.

© “525-ci qəzet”, 2010

**İlqar Fəhmi** ( Paşayev İlqar Əli-Abbas oğlu)
1975-ci ildə anadan olub. Bakının Zirə kəndindəndir. 1994-cü ildən ədəbi yaradıcılıqla məşğul olur. 2002-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

«**Sənli sözüm gəldi sənə**» (2001), «**Ölüm gözəldi, yoxsa sən**»(2002) adlı şeir toplularının və «**Aktrisa**» (2005), «**Akvarium**» (2006), «**Bakı tarixindən kollaj**» (2007), «**Qarğa yuvası**» (2008), «**Kölgədə əqrəb**» (2010) adlı nəsr kitablarının müəllifidir.

Bir neçə pyesi («**Axırıncı qatar**», «**Fırıldaqçıların əsri**») ölkə teatrlarında səhnələşdirilib, «**Ölüm növbəsi**», «**Aktrisa**» ssenariləri Dövlət sifarişiylə ekranlaşdırılıb, «**Sirat körpüsü**», «**Məcnunlar**», «**50 000 azn**», «**Qaydasız döyüş**» ssenarilərinə isə ölkə telekanallarında bədii televiziya filmləri çəkilib.

Gənclər və İdman nazirliyinin «**2003-cü ilin ən yaxşı gənc şairi**»mükafatına, 2007-ci ilin «**Rəsul Rza**» ədəbi mükafatına layiq görülüb. 2008-ci ildə Moskvada MDB ölkələri gənc şairləri arasında keçirilən «**Debütlər birliyi**» şeir müsabiqəsinin diplomantı olub.

Əsərləri Rusiya, Türkiyə, Polşa, Almaniya, Avstriya, Ukrayna, İran, Özbəkistan və sair ölkələrdə dərc olunub. Hal-hazırda Azərbaycan Yazıçılar Birliyinin Tərcümə bölməsinin rəhbəri, «**Ulduz**» jurnalının «**Nəsr və poeziya şöbəsi**»nin redaktorudur.

Budaqlardan yerə gəlmiş qonaqlar, sarı yarpaqlar,
Qonaq? Yox, yox yetim qalmış uşaqlar, - sarı yarpaqlar.

Küləklə dost olub çox gəzdilər birlikdə dünyanı,
Yəqin mən tək o cananı soraqlar sarı yarpaqlar.

Ayağın dəydiyi hər bir yerə üz sürtmək istərlər,
Odur şövq ilə torpağı qucaqlar sarı yarpaqlar.

Yenə sənsiz göz ağlar, cism üryan, çöhrə sapsarı,
Payızdır, gur yağış, çılpaq budaqlar, sarı yarpaqlar.

Deyirlər hər ağac bir aşiqin qəm dəftəri olmuş.
Bu dəftərdən qopan solğun varaqlar - sarı yarpaqlar.

Elə bil tapdalanmış haqqıdır məzlumların yerdə,
Bu az ömründə çox görmüş ayaqlar, sarı yarpaqlar.

Eşitsən bağçada yüngül xışıltı, anla ki Fəhmi,
Bilib talelərin sakitcə ağlar sarı yarpaqlar.

Ağ duman tək yuxuna kaş ki, gələydim gecələr,
Qəmli ruhun haralar gəzdi, biləydim gecələr.

Hər səhər sübh nəsimiylə doğulmaqçün kaş,
Baş qoyub sinənə sakitcə öləydim gecələr.

Bölünüb min yerə, hər zərrəmi bir ulduz edib,
Başın üstündə səmaya düzüləydim gecələr.

Ağlayıb gündüzü biçarə bulud tək sənsiz,
Baxaraq göz yaşıma sənlə, güləydim gecələr.

Sən qaranlıqda ayı seyr elədikcə, mən də,
Ruhuna ay işığıyla süzüləydim gecələr.

Baş daşım üstə dodaq izlərini öpmək üçün,
Allahımdan da xəbərsiz diriləydim gecələr.

Fəhminin qəlbində son arzusu qalmış yalnız,
Ağ duman tək yuxuna kaş ki, gələydim gecələr.

İnsan deyiləm, indi bunu anlamışam mən,
Eşq adlı buluddan süzülən bir yağışam mən,
şıltaq yağışam mən.

Yağdırsa da çirkabə məni qarə buludlar,
Qəlbimdəki şəffaflığımı saxlamışam mən,
çünki yağışam mən.

Hər gün döyürəm pəncərəsin sevgili yarın,
Yox ayrı yolum ki, ona dərdim danışam mən,
dilsiz yağışam mən.

İsbat eləyə bilməyirəm eşqimi heç cür,
Mümkün ki deyil eşqin oduna alışam mən,
çünki yağışam mən.

Yarın evinin dövrünü dəryayə çevirdim,
Çox şükr, rəqibin yolunu bağlamışam mən,
qısqanc yağışam mən.

Yağsam da yerə, göylərə qaytar məni, ya rəbb,
Torpaqlara biryolluğa qoyma qarışam mən,
çünki yağışam mən.

Fəhmi, mənim eşqim ola bilməz ki, tükənsin,
Eşq aldı buluddan süzülən bir yağışam mən,
bitməz yağışam mən.

Bu güzgüdəki sənsən, gülmə, mələyim, gülmə,
Əksin niyə daşlaşdı, bilmə, mələyim, bilmə.

Biz zirvəsinə eşqin ayrılmaq ilə çatdıq,
Gecdir, yanıma artıq gəlmə, mələyim, gəlmə.

Göz yaşı o günlərdən çöhrəndə qalan izdi,
Gör bir necə acizdi, silmə, mələyim, silmə.

Son saniyəsi ömrün qopmaqdadı əqrəbdən,
Ölmək də düşüb dəbdən, ölmə, mələyim, ölmə.

Təkcə sənin olsun qoy, ruhunda onu bəslə,
Sən Fəhmini heç kəslə bölmə, mələyim, bölmə.

Nə vaxtsa qəmli olsam, nağıl danış mənimçün,
Nəfəs kimi daralsam, nağıl danış mənimçün.

Yalan şirin zəhərmiş, məni həmişə aldat,
Həqiqəti cırıb at, nağıl danış mənimçün.

Bu günləri bir anlıq silib çıxart yadından,
Unutduğum qadından nağıl danış mənimçün.

Dəniz-dəniz günahdan xilas bəhanəsiylə,
Mələklərin səsiylə nağıl danış mənimçün.

Həyat duman kimiydi, itib-batıb dağıldı
Ölüm də bir nağıldı, nağıl danış mənimçün.

Əcəl yuxusu gəldi, bu yaşı sil gözümdən
Yavaşca öp üzümdən, nağıl danış mənimçün.

Bəlayə düşsə Fəhmi, xilas üçün gəlib sən
Otur yanımda hərdən nağıl danış mənimçün.

Dincəl bir az, ey hər gün özündən qaçan oğlan
Ahıyla içindən çölünə yol açan oğlan.

Düşsən yağışa, tez dəyəcəksən yerə, vallah
Kağız qanad ilə göy üzündə uçan oğlan.

Yanma bu qədər boş yerə, səndən günəş olmaz
Ey şölələnib hər tərəfə nur saçan oğlan.

Çox başqasının qanın içən görmüşəm, ancaq
Heç görmədim öz qanını sən tək içən oğlan.

Vaxtın çatıb artıq, daha bir gözdə məkan tut
Dünya kimi gözdən-gözə daim köçən oğlan.

Sən ki, ölüsən, dəfn eyləyiblər öz içində
Yorma özün, ey qəbri üçün yer seçən oğlan.

Kim Fəhmini gördü dedi - Əhsən hələ sağmış
Dünyada cəhənnəm alovundan keçən oğlan.

Gedən gəlib, fəqət mənim gedənlərim qayıtmadı
Dumanda batdı yelkənim, gedənlərim qayıtmadı.

Nəfəs də çəkmədən durub min ildi gözlərəm, fəqət
Rahat yatan bu yolları ayaq səsi ayıltmadı,
Gedənlərim qayıtmadı.

Ümid dolu üfüqlərə nə vaxtdı zillənən gözüm
Yanağıma sığal çəkən sevinc yaşın axıtmadı,
Gedənlərim qayıtmadı.

İçimdə ta zaman-zaman dolaşsa da xəfif külək
Ürəyimə dolan qara fikirləri dağıtmadı,
Gedənlərim qayıtmadı.

Bu kimsəsizliyim görüb, ölüm yetişdi dadıma,
Dilimdə söndü son sözüm, - Gedənlərim qayıtmadı,
Gedənlərim qayıtmadı.

Qəmli şahım, haradasan, imdadə gəlmək vaxtıdır,
Al dodağınla gözümdən yaşı silmək vaxtıdır.

Çox böyütdüm mən səni, qəlbə sığışmırsan daha,
Parçalarsan qəlbimi, az-maz kiçilmək vaxtıdır.

Başın üstündə bulud tək çox dolaşdım, indisə
Ağ ayağın altda kölgən tək əzilmək vaxtıdır.

Ey ürək, çox güldülər əhvalına, sən incidin,
İncimə, bax güzgüyə, gül sən də, gülmək vaxtıdır.

Damcı-damcı qəm suyu səndən keçərdi, ey gözüm,
İndi gur seldir gələn, yoldan çəkilmək vaxtıdır.

Azmışam ruhumdakı zülmət şəhərdə, qorxuram,
Birtəhər imkan tapıb burdan əkilmək vaxtıdır.

Bəsdi yatdıq bu qaranlıq, dar məzar içrə, yetər,
Dur çağır gəlsin ölüm, Fəhmi, dirilmək vaxtıdır.

Gecə ruhumda yanan şam ki, sönər sakitcə,
İsti göz yaşı donub daşa dönər sakitcə.

Tək buraxmam səni, ölsəm də əgər kölgən olub
Daim ardınca xəyalım sürünər sakitcə.

Sərsəri duyğularım diqqəti cəlb etmək üçün,
Yenə şer adlı libasın geyinər sakitcə.

Gecə göylərdə soyuqdurmu ki, mən yandıqca,
Atəşim üstə mələklər isinər sakitcə.

Bu qədər qəm yükünü çəksə də biçarə ürək,
Səsi çıxmaz, gecə-gündüz döyünər sakitcə.

Nakam aşiqlərinin ruhudu, qar şəklin alıb
Saçına qonmaq üçün göydən enər sakitcə.

Kimsəsizlik soyuğundan büzüşəndə Fəhmi,
Yenə eşq oduna yarım, bürünər sakitcə.

Güclə vaxt tapmış idim bircə nəfəs gülmək üçün
Tez bəla gəldi dodaqdan gülüşü silmək üçün.

Sənə dönmək nə səadətdi, burax əllərimi,
Qoy gedim, itməyə yox-bir də sənə gəlmək üçün.

Bütün ömrüm boyu dil tapmadım öz könlüm ilə,
Can verərdim bu çətinlikdə dili bilmək üçün,

Qələmimdən süzülür duyğularım ağ varağa,
Dəftərim içrə beş-on günlüyə dincəlmək üçün.

Cismi at, ruhunu azad elə artıq yükdən,
Bir çinar yarpağı üstə göyə yüksəlmək üçün.

Taleyin fırçasın almış dişinə çərxi-fələk,
Ömrümü rənglərə göy qurşağı tək bölmək üçün.

Mən sürünmək dolu bu ömrü verərdim, Fəhmi,
Bir saatlıq kəpənək tək yaşayıb-ölmək üçün.

Yad et məni könlündə diləklər görüşəndə
Ovcunda al-əlvan kəpənəklər görüşəndə.

Bir sevgi düşər qu  quşunun ağ qanadından,
Ruhumda o ağ, incə lələklər görüşəndə.

Şimşəkmi bu, yainki qığılcım çıxır, allah,
Göylərdə qılınc əldə, küləklər görüşəndə.

Don vurmuş ümidlər ayılar qış yuxusundan
Yaz yağmuru altında ürəklər görüşəndə.

Qönçə açılıb zülməti qovdu öz içindən,
İlk sübh şüasıyla ləçəklər görüşəndə.

Tənha çığırın rəngi bir azca açılardı
Baş daşımın üstündə çiçəklər görüşəndə.

Fəhmi, o zaman mən sənə şair deyərəm ki
Şerinlə dinə göydə mələklər görüşəndə.

Göyərçin boynu yumşaqdı,  sığalla, amma sındırma
Göyərçin qəlbi dustaqdı, burax uçsun, yubandırma.

Göyərçin ömrü matəmli, göyərçin gözləri nəmli
Qoy axsın inci göz yaşı, əlin vurma, bulandırma.

Göyərçin sevgisi gizlin, soruşma, söyləməz sirrin
Göyərçin ruhu ismətli, danışdırma, utandırma.

Göyərçin tellərində şeh, aman vermə dağıtsın meh
Göyərçin köynəyi dümağ,  tozun içrə uzandırma.

Göyərçin dimdiyi həssas, gecə ulduz yığar dən-dən
Göyərçin fikri göylərdə, yolun kəsmə, dayandırma.

Göyərçin könlü kövrəkdi, nolur, çox xətrinə dəymə
Göyərçin bağrı çox incə, cızıb qana boyandırma.

Göyərçin ki günahsızdı, sıxıb gizlətmə qoynunda
Özün Fəhmi yanırsansa, onu, rəhm eylə, yandırma.

Vəsfinə mən söyləyəndə sözlərin tənhasını,
Kaş ki kölgən qızdıraydı üzlərin tənhasını.

Bir ovuc torpaq olaydım sən keçən yollarda kaş
Saxlayardım sinəm üstə izlərin tənhasını.

Bir ümidsiz ay gəzər göylərdə tənha hər gecə,
Sübhü gözlər ki görə gündüzlərin tənhasını.

Dünyadan köçdüm, məni göylərdə axtar hər gecə,
İndi məskən seçmişəm ulduzların tənhasını.

Fəhmi, ətrafa baxıb tənha ölümdən qorxma çox
Əllərin tənhası örtər üzlərin tənhasını.

Ümid qeyb oldu, ruhumda qaranquşlar ölən gündən
Mən eşqimdən qaçaq düşdüm sən insafa gələn gündən.

Daha hifz eyləyən yoxdur bəladan ruhumu, yəqin
Mələklər də küsüb məndən, səni tanrım bilən gündən.

Uçub getsəm də yanından, elə bilmə ki tənhasan,
Başın üstündəyəm hər gün, səmaya yüksələn gündən.

Saralan çöhrəmin rəngi mənimçün yadigar qalmış
Payız yarpaqlarıyla sən gözüm yaşın silən gündən.

Cəhənnəm quşları açmış mənə öz odlu ağuşun
Səni tapmaq yəqin ikən gümana çevrilən gündən.

Yuxum üz döndərib məndən, gözüm bağlanmayır bir dəm
O məsum çöhrəvin əksi gözümdə dincələn gündən.

Atıbdır Fəhmini hiddətlə dərdin qoynuna tanrım
Sevinclə dərd arasında bu dünyanı bölən gündən.

Bir mən kimi yalqız bulud ağlar göy üzündə,
Öz sevgisin həsrətlə soraqlar göy üzündə.

Qalxdı göyə eşq odu sinəmdən gecə düşcək,
Ordan od alıb yandı çıraqlar göy üzündə.

Yəqin ki, günəş çöhrəvə bənzər, onun üçün,
Allah onu çırpmaz yerə, saxlar göy üzündə.

Meh aldı daraqdan saçıvı, çəkdi səmayə,
Rahatca onu indi qucaqlar göy üzündə.

Göy gurladımı? Ya ki sinəmdən çıxan ahı
Zalım fələk hiddətlə ayaqlar göy üzündə.

Hər məktubumu yüz yol öpərdin, niyə indi
Ağ quşlara döndü o varaqlar göy üzündə.

Fəhmi, bu qədər şövq ilə yanma, görən olsa,
Biçarə günəş tək asacaqlar göy üzündə.

Durmuşam sahildə tənha, bir dənizdir, bir də mən
Gözdən itmiş sanki dünya, bir dənizdir, bir də mən

Vaxt var idi birgə idik, sevgilim, mən və dəniz,
İndi yox heyf ol dilara, bir dənizdir, bir də mən

Cümlə aşiqlər səni görmək ümidin üzdülər,
Göz dikən yoluna bica bir dənizdir, bir də mən

Axşam oldu, hamı yatdı, həsrətindən yatmayan
Görməyən heç vaxtı rö'ya bir dənizdir, bir də mən

Çoxları görcək səni öz eşqin e'lan eyləyib
Çağlayan eşqinlə amma bir dənizdir, bir də mən

Bir  zaman Məcnun idi divanə, səhra məskəni
İndi yox Məcnun, nə səhra, bir dənizdir, bir də mən

Fəhmi, həsrət üçbucağı çəkdi tale ruhuma
Yaxşı bax - bir qəmli xülya, bir dənizdir, bir də mən

Sinəm dar bir qəfəsdir, orda sevdalı ürək dustaq,
Qalıb biçarə bu zülmətdə müddətdir ki tək dustaq.

Gözüm yaşın töküb ah eylərəm hicran otağında
Nədir bu? Dörd divar içrə yağış məhbus, külək dustaq.

İlahi, hər duanın dövrəsin min-min günah tutmuş,
Nə qanundur, tikan içrə ola hər bir çiçək dustaq?

Dayanma cismdə, sındır, dağıt bu məhbəsi, könlüm,
Azad olmaq ümidin gəsməsin heç vaxt gərək dustaq.

Mən iblisin əcəl zindanıyam ki tanrıdan gizlin
İçimdə ahü-fəryad içrə minlərlə mələk dustaq.

Fələk zülmü kəsilməzsə, bezib ruhlar qiyam eylər
Bu aciz ruhlara bir gün olar çərxi-fələk dustaq.

Göyə baş vurmaq istərsən, buna Fəhmi, gücün çatmaz
Yerin tərkində əvvəl olmasan fəvvarə tək dustaq

Ver sərvətini, şöhrəti-şanı yel aparsın
Qoyma fəqət əhd ilə vəfanı yel aparsın.

Dilbər, elə məst etdi məni saçların ətri
Az qaldı gözümdə bu cahanı yel aparsın.

Saf eşqimizi məhv edə bilməz dəli hicran
Harda görünübdür ki, şüanı yel aparsın.

Tutmuş yenə ətrafımızı hicr dumanı
Ey sinə, bir ah çək bu dumanı yel aparsın.

Cismim elə incəldi bəla-dərd yükündən,
Az qaldı ki, mən bəxtiqəranı yel aparsın.

Aç ruhumuzun pəncərəsin, ey ulu tanrım,
Qoy fitnə-fəsad, hiylə-riyanı yel aparsın.

Yetmir duam allahıma, Fəhmi, xahiş eylə
O yerlərə bəlkə bu duanı yel aparsın.

Nədəndir sakit olmaz, hər gün aramsız əsər xəzri,
Yə'qin ki, axtarır hər yerdə ol güldən əsər xəzri.

Rəva görməz özündən başqa bir kəs o gülə baxsın
Onunçün gözlərimə gündə toz-torpaq ələr xəzri.

Necə gör bir sınıbdır qol-budağım, öylə bil ki, mən
Açıqlıqda bitən tənha çinarəm, qəm-kədər xəzri.

Səbanın istirahət vaxtı çatmışsa, zərər yoxdur,
Saçın ətrin bu gündən ver gətirsin hər səhər xəzri.

Ayağın dəydiyi hər zərrə torpağı öpərdim mən
Götürüb qaçmasaydı məndən əvvəlcə əgər xəzri.

Bir an da istəmir ki, səndən ayrılsın, onunçün də
Bu yerlərdən kənara etməz heç bir vaxt səfər xəzri.

Bu yanda Fəhmi tək aşiqlərin qalmış sənə həsrət
O yanda çəkmiş ağuşa səni o bəxtəvər xəzri.

Gecələr göydə səni çox gəzib axtardı yuxum
Zülmətin baqrını ağ eşqi ilə yardı yuxum.

Gəlməyirsən yuxuma xeyli zamandır, bəlkə
Hüsnünün hədsiz olan nuru üçün dardı yuxum.

Gah buludlu göy olur, gah dəli, tufanlı dəniz
Gah da qəm ətri verən laləli gülzardı yuxum.

Ağlayıb yalvarıram hər gecə ki, rəhm eləyib
Səni bir anlığa bəlkə mənə qaytardı yuxum.

Gözümə xeyli zamandır ki, görünmür, utanır
Tapa bilmir səni, qarşımda günahkardı yuxum.

Sən ki, getdin, o zamandan da yuxum qeyb olmuş
Ayrılıq sanki günəşdi, əriyən qardı yuxum.

Vardı günlər ki, görərdi yuxuda Fəhmi səni
Necə xoşbəxt zamanlardı, hələ vardı yuxum.

Mən ki öz şerimə bükdüm qəmi misra-misra,
Qəm də şerimlə gəzir aləmi misra-misra.

Dərdimi bildi təbibim, mənə bir şer oxudu
Sanki çəkdi yarama məlhəmi misra-misra.

Qələmimlə yığıram düzmək üçün ağ kağıza
Gül yanaqlarda donan şəbnəmi misra-misra.

En səmadən, mələyim, ki səni vəsf etmək ilə
Dağıdım qəlbə dolan matəmi misra-misra.

Yazılır dəftəri-eşqə ürəyim qanı ilə
Ömrümün sənsiz ötən hər dəmi misra-misra.

Sevmişəm bir gülü ki varlığa bir incə qəzəl,
Nazı beyt-beyt eliyir, çəm-xəmi misra-misra.

Bəlkə Həvva da o vaxt Fəhmi kimi şair olub,
Yəni yoldan çıxarıb Adəmi misra-misra.

Məgər heyran olubdur hüsnünə, ey məhliqa kölgə
Ki ardınca sürünməkdən yorulmur binəva kölgə.

Bir aşiqdir ki cismində təmamən dağsız yer yox,
Görənlər zənn edər düşmüş dalınca bir qara kölgə.

Həsəddən lalə tək qan oldu bağrım görcəyin, ey şux,
Tutub daim ayağından öpür hey bihayə kölgə.

Nə qədri var idi dost-aşina, qeyb oldu dar gündə
Yanımda qaldı yalnız bir həqiqi aşina – kölgə.

Nə qədri dərdü-qəm vardırsa cismimdə, çıxar ol dəm
Bir anlıq başıma salsa əgər ol dilrüba kölgə.

Nədən rəngin dəyişmir, çıxmayır matəm libasından
Yəqin ki bir şəhidi-eşq üçün saxlar əza kölgə.

O qədri incəlibdir dərdü-qəmdən Fəhminin cismi
Görənlər bilməyir ki, canlı məxluqdur bu, ya kölgə.

Yatmışdı həqiqətdə o kəs ki hələ sağdır,
Gözlərini dünyayə yuman gündən oyaqdır.

Bir zirvəsi qarlı uca dağdır ki qəmi-eşq
Şair təbi ordan su alan xırda bulaqdır.

Allah əbədiyyət sarayın bizlərə vermiş
Dünyamız o zinyətli sarayda bir otaqdır.

Dağlarca əzab verdiyi üçün mənə dövran
Dağdan da böyük yarəli sinəmdəki dağdır.

Var-dövləti tutmaqçün ayaqlar da əl olmuş,
İmanı atıb qaçmağa əllər də ayaqdır.

Dünyaya qonaqdır dedilər hər gələn insan
Hər halda qonaqdırsa da çox üzlü qonaqdır.

Məcnuna həyat yoldaşı qəm, Fəhmiyə möhnət,
Aləm dedi - Məcnun ilə Fəhmi bacanaqdır.

Yollarda qalıbdır ala gözlər, səni gözlər.
Yaş töksə də hər gün yenə gözlər səni, gözlər.

Ey qəmli könül yelkəni, durma daha, üz get,
Həsrətli ürəklərdə  dənizlər səni gözlər.

Gül çöhrəni seyr etmək üçün növbə çəkirlər,
Ay gecə, günəş isə gündüzlər səni gözlər.

Sanma ki, çəməndə bu qədər lalədi, şahım
Al qırmızı örpəkli kənizlər səni gözlər,

Görcək səni diz çökməmək olmur, mələyim, gəl
Qatlanmağa hazırdır bu dizlər, səni gözlər.

Ey ruhuma həmdəm qələmim, bəsdi dayandın
Qəlbdən süzülən qüssəli sözlər, səni gözlər.

Sən gəldiyin o yolları bu Fəhmi həvəslə
Göz yaşı ilə gündə təmizlər, səni gözlər.

Suda qərq etsə də ey dil, məni-naçarı yağış,
Söndürə bilmədi qəlbimdəki odları yağış.

Göydə səyyarələr ağlar mənə, bir bax, bu su da,
Yarı səyyarələrin göz yaşıdır, yarı yağış.

Soyuq ahım ki buludlu göyə getdi, çatdı,
Ol zamandandı tutub çölləri, gülzarı yağış.

Necə ar eyləməyib busə o güldən dilədim,
Yuyub üzdən aparıb yoxsa həya, arı yağış?

Əhli-eşqəm mənə, ey dil, nə gərək sərvətü-var
Könlümün sərvəti atəş, gözümün varı yağış.

Necə gör möcüzəli bir sədəf imiş yanağın
Ona dəydikcə səpər hər yana mirvari yağış.

Göz yaşım görsə bilər sirrimi xəlq, əhsən ki
Qoymadı faş ola qəlbimdəki əsrarı yağış.

İstəmir zərrə qədər toz da qala gül üzdə
Ol səbəbdəndi yuyur çöhreyi-dildarı yağış.

Kəbeyi-kuyinə üz tutmuş ikən eşq əhli
Yağdı ki, pak eləsin bir belə zəvvarı yağış.

Dinlə, gör bir nə həzindir yağışın zümzüməsi

Yoxsa ki istəyir ötsün kamanı, tarı yağış.

Bircə an, ey pəri, cəlb etmək üçün diqqətivi
Gündə kuyində təmizlər dərü-divarı yağış.

Fəhminin kimsəsi yoxdur bu biyabanda, gülüm,
Dostu, sirdaşı külək, həmdəmi qəmxarı yağış.

Eşqə düşmüş, həm inildər, həm fəğan eylər saat
Çün fəğan etməklə əhvalın əyan eylər saat.

Hər qədər ki sənsizəm gün uzadır hər anı,
Sənlə olsam bir günü neyçün bir an eylər saat.

Ömrümüzdən anları kəsdikcə toplar bir yerə,
Xatirə adlı işıqlı bir cahan eylər saat.

Bilmirəm Fərhad olub çapmaqla ömrüm dağını
Hansı Şirinə qəmi-eşqin bəyan eylər saat.

Bir belə qüdrət ki var hökmündə, hardandır ona?
Bətndə yoxsa fələk çərxin nihan eylər saat.

Söyləyin canında heç bir zərrə yoxmu qorxusu?
Cismini əqrəblər üçün aşiyan eylər saat.

Fəhmi, vaxt adlı ədalətli şahın məmurudur
Hər yana öz şahının hökmün rəvan eylər saat.

Zülmət içrə görünən şöləyə döndüm - yandım
Can verən, məhv olan ulduz kimi söndüm - yandım.

Yandırır bircə baxışla, dedilər, ol dilbər,
Gözünə bircə dəfə mən də göründüm - yandım.

Çünki qanundu bu, sürtünmədən atəş yaranar
Mən də şamü-səhər ardınca süründüm - yandım.

Qəlbimi eşq odudur hifz eləyən dünyada
Ondan ötrü alova böylə büründüm - yandım.

Fəhmiyə tale bütöv yanmağı da çox gördü
Şüşə tək min bir əziyyətlə bölündüm - yandım.

Şeri yazdım ki biləm sənli sözüm kəldi sənə
Bəlkə mənsizliyə bir azca dözüm gəldi sənə.

Sənə baxdım o qədər ki, məni gözsüz buraxıb
Gizlənib qəmli baxışlarda gözüm gəldi sənə.

Mən alışdım bu soyuqda isidim azca səni,
Yüyürüncə alovum söndü, közüm gəldi sənə.

Bədənim öylə zəif ki, ayağımdan yapışıb
Düşmədi bir daha torpağa, izim gəldi sənə.

Sən ki məndən su umurdun bir ovuc, əfv eylə,
Yox bu səhradə su, ovcumda üzüm gəldi sənə.

O qədər ki sənin ardınca süründü Fəhmi
Parçalanmış ayağım, qanlı dizim gəldi sənə.

Eşqdən ki ürəyimdə bu qədər yarə qalıb,
Kimsə dərman edə bilməz, ümidim yarə qalıb.

Həm vüsal istəyirəm, həm də ki hicran qəmini,
İki xülya arasında könül avarə qalıb.

Səni görcək özünü öylə itirmiş könlüm
Neçə vaxtdır ki özün axtara-axtarə qalıb.

Çəkcəyin qəm bıçağın üstümə hicran, gördüm
Ürəyim yoxdu, yerində neçə yüz parə qalıb.

Qalmadı kimsəyə borcum bu cahanda, ey dil,
Bircə can borcu qalıb ki o da dildarə qalıb.

Paylananda hamıya bəxt, mənim bəxtimdən
Çatdı növbəm, dedilər - ağ qutarıb, qarə qalıb.

Fəhminin fikrü-xəyalı yenə göylərdə gəzir
Ev-eşik dərdini çəkmək isə İlqarə qalıb.

Ürəyimdən başıma gündə ilanlar sürünür,
Nə qədər öldürürəm, yerdə qalanlar sürünür.

Can verən doğruları dəfn edərək qəlbimdə,
Dilimə sarı yenə səylə yalanlar sürünür.

Elə ağır yük imiş insan üçün böylə ömür,
Ki verənlər yatır asudə, alanlar sürünür.

Bu nə dünyadı, ilanlar uçuşur göylərdə
Qara torpaqdasa qartal doğulanlar sürünür.

Fəhmiyə çərxi-fələk gör necə məclis qurmuş,
Oxuyan öndə qaçır, dalda çalanlar sürünür.

Bu həyat yolları ilə yeriyirsən, böyüyürsən
Büdrəyirsən, yıxılıb daşa dəyirsən, böyüyürsən.

Eşq odunda ərisəm də, yox olub getmərəm əsla
Elə oddur bu yanırsan, əriyirsən, böyüyürsən.

Belə getsə mənə yerləşməyəcəksən, dəli könlüm
Neçə qəm köynəyin üst-ütsə geyirsən, böyüyürsən.

Həqq qabağında əyildikcə, güman etmə kiçildin
Elə ki dildə dualar baş əyirsən - böyüyürsən.

Bu həyatda hərə bir cür böyüyür, Fəhmi, sən isə
Körpəlikdən elə qəm-qüssə yeyirsən, böyüyürsən.

Çatıbdı vaxtı, gedir son baharı gəncliyimin
Yubanmağa daha yox ixtiyarı gəncliyimin.

Nə vaxtsa gözləmə ki bir daha yaşıllaşacaq
Susuz qalıb, quruyubdur çinarı gəncliyimin.

Yanımda sən yox idin, ondan ötrü  böylə dolub
Kağız çiçəklər ilə laləzarı gəncliyimin.

Əgər kədərli,  həzin nəğmə tək düşürsə yada
Sənin xəyalın idi bəstəkarı gəncliyimin.

Sənə yetişmək üçün ki özün fəda elədi
Gərək qapında qazılsın məzarı gəncliyimin.

Xəzəl kimi səpələnmişsə yerdə duyğularım
Demək küləkli keçib ruzigarı gəncliyimin.

Neçin bu Fəhmini tək qoydun intizar içrə
Sənə yetişmədimi ahü-zarı gəncliyimin.

Gördüm səni bir qış gecəsi şam işığında,
Sardı məni sevmək həvəsi şam işığında.

Bu qış gecəsində əbədi qalmaq üçün, gəl
Birlikdə verək son nəfəsi şam işığında.

Bir sərsəri sevdanın ölüm rəqsinə bənzər,
Lal kölgələrin titrəməsi şam işığında.

Atəşlərə baş vurmağa səslər bizi sanki,
Pərvanələrin qəhqəhəsi şam işığında.

Yoxsan, sənin üçün darıxıbdır otağım da,
Sənsiz saralır pəncərəsi şam işığında.

Qopduqca ömürdən yol alır yoxluğa doğru
Sənsizliyin hər saniyəsi şam işığında.

Fəhmi, yenə şəmin gözünün yaşı axırsa
Gəlmir niyə hönkürtü səsi şam işığında?

Ömür yolu bir varaq, yarı qara, yarı ağ
Tanrı çəkib yüz zolaq, yarı qara, yarı ağ.

Sinədə həm ayrılıq, həm də ümid atəşi,
Tüstü verər bu ocaq, yarı qara yarı ağ.

Körpə nəfəs şöləsin örtdü əcəl kölgəsi
Kimsə ölür, kimsə sağ, yarı qara, yarı ağ.

Oxşa dumana-çənə, ruhunu birrəng elə
Olma buludlar sayaq, yarı qara, yarı ağ.

Gözlərimlə yarımın əksi düşübdür yenə
Qönçə dodaq, al yanaq, yarı qara yarı ağ.

Fəhmi, ürəkdən doğan arzularım, hisslərim
Şaxələnir min budaq, yarı qara yarı ağ.

Elə dünyaya düşdük ki qaralar  ağ yeyir - doymur,
Bacarsa öldürür,  öldürməsə sağ-sağ yeyir - doymur.

Düşübsə iblisin zindanına ruhun, əl üz ondan,
Elə zindandı bu hər gündə yüz dustaq yeyir - doymur.

Kiminə bir içim su, bir udumluq duz-çörək bəsdi
Kim isə gündə bir bərya içir, bir dağ yeyir - doymur.

Nə qədri məzlumun ahın udur göylər, udur-bezmir
Nə qədri canfəda mərdlər yeyir torpaq, yeyir - doymur.

Bu yandan bir vəfasız yar, o yandan rəhmsiz dövran
Bu qansızlardı, Fəhmi, ömrümü ortaq yeyir - doymur.

## Səslər

*Alim Qasımova həsr olunur*

Mənə səndən əlamətdir  bu dünya içrə hər bir səs,
Sənin şəklin çəkir qəlbə gecə bir səs, səhər bir səs.

Tamam yandırdı cismi eşq, eşq odu məndən qalıb
ancaq
Göyə qalxıb sənə doğru yol almış bəxtəvər bir səs.

Məni meyxanədə yalnız qədəh cingiltisindən sor
Mənəm bu bəzmdə sərməst, özündən bixəbər bir
səs.

Məni tənha görürkən kimsəsiz zənn etmə, ey qafil
Başım üstündə hər gün ağlayar bir səs, gülər bir
səs.

Elə ki, sirli cahan içrə göründüm,
Gecə gündüz o səs ardınca süründüm,
Bədən artıq yük imiş burda, nəhayət
Mən də sıyırdım özümdən, səsə döndüm.

Səslərin ətri olur, rəngi olur, dadı olur
Səslərin söz kimi övladı olur.
Səslərin ərşə çıxan qəhqəhə
Səslərin qəmli muğamlar kimi fəryadı olur.

Göydən enmiş bir sədasan şübhəsiz
Xəstə könlümçün dəvasan, şübhəsiz
Sirli səs dünyası içrə,
Son səsə ilk aşinasan, şübhəsiz.

Qüssə qəm şaxtası dondursa əgər
Ömr bağında ümid güllərini,
Ruhunu sıxsa əzab, qüssə, kədər-
Gözünü yum, o səsə sarı kəs uzat əllərini
o səsə sarı kəs, at əllərini,
O səsin istisi vurduqca səni
Asta-asta əriyər əllərinin buz kəfəni,
Əridikcə su damar torpağa sakit-sakit
O solub getmiş ümid gülləri də
Başlayar qalxmağa sakit-sakit.

Atəşi çək ruhuva hər dəm, hər aldıqca nəfəs
Yox elə varın ki səndən qalsın ancaq sirli səs.

Səslərin səhrasıdır son mənzilin, son məskənin
Susma, bu sonsuz səmada sakin olmaqçün tələs.

Sən də bu səhrada yalqız bir sədasan mən kimi
Yox imiş yalqızlara səsdən-sədadən qeyri kəs.

Sən ki səslər sahibindən bir nişansan, çarə qıl
Qoyma olsun son məkanım səs səmirsiz bir qəfəs.

Səsdən yaranıb çünki bu dünya
Səslərdi bizə cilvəli röya,
Axırda bizi ruzi-qiyamət
Səs eyləyəcəkdir yenə ehya,
Səs eyləyəcəkdir yenə ehya.

## Qünut

Mənə zülm etdi fələk, atdı bu dünya içinə,
Baxmadı kimsə bu miskin ürəyin naləsinə,
Əlim hər yandan üzüldü, ümidim qaldı yenə
Sənə doğru açılan əllərimin kölgəsinə.

Eşqinin şimşəyi ki, ömrümün üstə çaxdı,
Qəlbdə yatmış olan sevgi oyandı, qalxdı,
Qorxa-qorxa çölə boylandı, yavaşca axdı
Sənə doğru açılan əllərimin kölgəsinə.

Qanad açmışdı ümidim, göy üzündə süzərək
Birdən oxlarını yağdırdı onun üstə fələk,
Düşdü biçarə səmadan yaralı qu quşu tək
Sənə doğru açılan əllərimin kölgəsinə.

Göyə qalxdıqca əlim zülmətə batdı hər yan
Bircə anlıq elə bildim ki, günəşdir tutulan,
Sonra gördüm, demə Allah, sığışıb cümlə cahan
Sənə doğru açılan əllərimin kölgəsinə.

**Yenə də**

Yenə xatırlayacaqsan bu evi
Yenə də zəng edəcəksən: Gəlirəm
Yenə də yalvaracaqsan: Gözlə,
Heç yerə getmə, bu günlük səninəm.

Yenə kölgən cızacaq pəncərəmi
Girəcəksən elə bil öz yuvana,
Yenə palton düşəcək qollarıma
Yenə çantan uçacaq boş divana.

Yenə sakitcə yumub gözlərini
Kürəyin söykədəcəksən sinəmə
Yenə guya unudub sözlərini
Deyəcəksən ki, demə, heç nə demə.

Yenə dinməz dayanıb bir müddət
Arxadan boynuna ahlar səpəcəm
Saçını sonra səliqəylə yığıb
Çiyninin ağ dərisindən öpəcəm.

Ağ belindən götürüb əllərimi
Yenə bərk-bərk sıxacaqsan döşünə
Yenə də tuş gələcək lal baxışım,
Al dodaqlarını sıxmış dişinə.

Sinən aramsız enib qalxınca
Mən gedib bağlayacam çöl qapını.

Söndürülmüş siqaretlərlə yenə
Birbəbir dolduracam külqabını.

Yenə də seyr edəcəm dinməzcə
Çiyinindən sürüşən köynəyini,
Yenə də gözləyəcəm tez soyunub
Tələsik lampanı söndürməyini.

Yenə qoynumda bu çılpaq bədənin
Sübhəcən çırpınacaq, ağlayacaq
Yenə dırnaqların ac qırğı kimi
Sinəmi, boynumu cırmaqlayacaq.

Yenə qışqırtın, iniltin qopacaq,
Sıxacam ağzını ovcumla yenə
Qonşuda xeyli qulaq şəklənəcək
Ehtirasın bu həyasız səsinə.

Yenə həzzin çatacaq son həddə
Bədənin od tutacaq, allanacaq……
Sonda halsız düşəcəksən yatağa,
Ayağın çarpayıdan sallanacaq.

Yenə titrək həyəcanlı səslə
Açacaqsan mənə öz hisslərini,
Yenə də axtaracaq süst baxışım
Bədənində yad öpüş izlərini.

Yenə də inciyəcəksən məndən

Deyəcəksən: Soyuyub ehtirasın.
Yenə xatırlayacaqsan bir vaxt
Bizi uydurmuş o şəhvət havasın.

Yenə laqeydliyimdən usanıb
Əsəbi yellədəcəksən əlini,
Sanki qəsdən məni cırnatmaq üçün
Yenə tərifləyəcəksən ərini.

Bezib axır susacaqsan, birdən
Yenə də yastığa çırpıb üzünü,
Dözməyib gəldiyin üçün bu evə
Yenə lənətləyəcəksən özünü.

Yenə də hönkürəcəksən xeyli
Nəmli yastıq udacaq göz yaşını,
Sonra sakitləşəcəksən azacıq,
Ah çəkib qaldıracaqsan başını,

Yenə qalxıb yığacaqsan yerdən
Səpələnmiş təzə pal-paltarını,
Geyəcəksən yenə tənbəl-tənbəl
Əyninə köynəyini, şalvarını.

Qapıda bir də yumub gözlərini
Kürəyin söykədəcəksən sinəmə,
- Sənə mən ömrümü bəxş eylərdim
Bircə yol barı desəydin - ELƏMƏ….

## Gecə kəpənəyi

Zahirdə - təbəssüm satan asudə dodaqlar,
Batində - ölən arzuların gizli məzarı.
Zahirdə - soyuq, şəbnəmi buz lalə yanaqlar,
Batində - axan göz yaşının isti buxarı.

Gözdə oxunan niyyəti çılpaq, sözü çılpaq,
Ruhunda-hər an zorladığı ismətin ahı.
Bir incə mələk, taleyi çılpaq, özü çılpaq,
Şəhvətdə batıb, anbaan artmaqda günahı.

Gündüz dolanar boynuna ağ körpə biləklər,
Axşam qara əllər gəzər halsız bədənində.
Gündüz bala eşqiylə sönük ruhu çiçəklər
Axşamsa tikanlar bitər əlvan çəmənində.

Zalım fələyin qanlı dəmir məngənəsində
Hər gün sıxılırdı, əzilirdi, kiçilirdi,
Qansızların işrətli səfa təntənəsində
Əllərdə gəzir,  dadlı şərab tək içilirdi.

İncitmə onu, göz yaşı görsən yanağında
Bəlkə də bu su ruhunu bir azca təmizlər.
Məlum deyil əsla ki hələ həqq qabağında
Kimdir üzü qarə, o çiçək, yoxsa ki, bizlər?

**İlqar Fəhmi haqqında yazılanlardan**

İlqar Fəhminin ilk qəzəllər kitabı məni həm sevindirdi, həm də heyrətləndirdi. Sevincimin səbəbi aydındır, ədəbiyyatımıza yeni və çox istedadlı bir müəllifin gəlməyinə sevinməmək olmaz. Heyrətimin səbəbi isə odur ki, bu gün şerdə yeniliyi yalnız vəzndə və şəkildə görənlərdən fərqli olaraq, İlqar Fəhmi qəzəl kimi ənənəvi bir formaya tamamilə yeni bir ruh verə bilmişdi. İlqarın yazdığı qəzəldir, lakin ənənəvi qəzəl deyil. Əliağa Vahidin və Süleyman Rüstəmin qəzəllərindən sonra, mən çağdaş ədəbiyyatımızda bu qədər mükəmməl qəzəllər oxumamışam.

*Anar. Xalq yazıçısı*
*Azərbaycan Yazıçılar Birliyinin sədri. 2003*

İlqar Fəhmi mənim böyük ümid bəslədiyim istedadlı gənc şairlərimizdəndir. Ömür enişli-yoxuşlu olduğu kimi yaradıcılığın da, sevinci-kədəri, uçuşu-enişi olur. Əsas şərt gəncin istedadlı olması, qəlbində allahın verdiyi istedad adlı bir işığı gəzdirməsidir. Biz onun gələcəkdə yazacağı əsərlər naminə ona indidən qayğı göstərməli, kömək etməliyik. Bunu da bacarmasaq, heç olmasa mane olmayaq.

İlqar indi qəzəllər yazır. Sonra nə yazacaq, necə yazacaq-onun öz işidir. Vacib olanı odur ki, İlqar istedadlıdır, yazdıqları da daim istedadlı adamın əsərləri kimi o birilərindən seçiləcək.

*Fikrət Qoca. Xalq şairi*
*Azərbaycan Yazıçılar Birliyinin Birinci katibi. 2003*

Abşeron Bakı kəndlərindən Azər, Səməd Mənsur, Əliağa Vahid, Baba Pünhan və onlarca belə istedadlı şair çıxmışdır. İndi bu adlara daha bir ad da qoşuldu - Zirəli İlqar Fəhmi. Qəzəllərindən və başqa formalı şerlərindən görünür ki, o həm klassik

şeir, həm də müasir şeir formalarını çox gözəl bilir. Onun qəzəlləri şer üçün vacib olan təşbeh, mübaliğə, istiarələrlə zəngindir.

***Fikrət Sadıq****. Xalq şairi*
*2004*

İlqar Fəhminin tarixi detektivlərini oxuyanda, hiss olunur ki, yazıçı müasir postmodernistlərin yaradıcılığıyla birgə, XX əsr kəskinsüjetli ədəbi əsərləriylə də, yaxından tanışdır. Ələlxüsus, tarixi-detektiv janrını bütün dünyada populyarlaşdıran və bununla da, müasir ədəbi prossesdə yeni cığır açan Umberto Ekonun təsiri daha çox hiss olunur.

«Çənlibel tülküsü» povesti gənc, istedadlı yazıçı İlqar Fəhminin tarixi detektiv janrında olan ilk əsəridir və mən ümid edirəm ki sonuncu olmayacaq.

Fikrimcə, İlqar Fəhmi yeni əsərləriylə sübut etdi ki yeni əsrdə Azərbaycan ədəbiyyatı hələ də maraqlı paradokslar yaratmağa qadirdir. Və bu inama görə İlqar Fəhmiyə təşəkkür edirəm.

***Çingiz Abdulayev****. Xalq yazıçısı*
*2005*

Detektiv əsərlərə o qədər həvəs göstərməsəm də, İlqarın «Aktrisa» romanını böyük maraqla oxudum və məndə şübhə yeri qalmadı ki, qəzəl şairi kimi təqdim olunan İlqar Fəhmi, həm də, peşəkar nasirdir. Onun «Qarğa yuvası» romanı mənim bu qənaətimi növbəti dəfə, və daha əsaslı formada təsdiqlədi. Bu əsər İlqarın ciddi bir nasir olduğunu tam aydınlığı ilə göstərdi.

***Rəşad Məcid****. Yazıçı-publisist. «525-ci qəzet»in baş redaktoru*
*2005*

Mən istərdim ki, ədəbi tənqid də, ixtisaslı tənqidçilərimiz də, İlqar Fəhminin «Qarğa yuvası» romanı haqqında öz mötəbər sözlərini desinlər. Əsərin kitab halında çapına yardım edilsin,

onu ölkəmizdə olan ədəbi mükafatlardan birinə təqdim etsinlər. Əsərin müəllifinə rəğbətim həm də, ondan irəli gəlir ki, mənim «Nəsimi» poemam da, bir növ, yarımtarixi əsərdir. Mən öz Nəsimimi elə təsəvvür edib yazmışam, İlqar Fəhmi öz Koroğlusunu belə təsəvvür edib, yazıb. Çox rahat, asanlıqla oxunan bu əsər yəqin ki, çox çətinliklə yazılıb. Məncə, əslində yaxşı əsər çətin yazılmalı, asan oxunmalıdır.

*Qabil. Xalq şairi*
*2006*

## Kitabın içindəkilər


| | |
|---|---|
| "Budaqlardan yerə gəlmiş qonaqlar, sarı yarpaqlar..."................ | 4 |
| "Ağ duman tək yuxuna kaş ki, gələydim gecələr..."................... | 5 |
| "İnsan deyiləm, indi bunu anlamışam mən..." ............................ | 6 |
| "Bu güzgüdəki sənsən, gülmə, mələyim, gülmə..." .................... | 7 |
| "Nə vaxtsa qəmli olsam, nağıl danış mənimçün..." .................... | 8 |
| "Dincəl bir az, ey hər gün özündən qaçan oğlan..." ................... | 9 |
| "Gedən gəlib, fəqət mənim gedənlərim qayıtmadı..." ................ | 10 |
| "Qəmli şahım, haradasan, imdadə gəlmək vaxtıdır..." .............. | 11 |
| "Gecə ruhumda yanan şam ki, sönər sakitcə..." ......................... | 12 |
| "Güclə vaxt tapmış idim bircə nəfəs gülmək üçün..." ................ | 13 |
| "Yad et məni könlündə diləklər görüşəndə..." ........................... | 14 |

“Göyərçin boynu yumşaqdı, sığalla, amma sındırma...” ........... 15
“Vəsfinə mən söyləyəndə sözlərin tənhasını...” ......................... 16
“Ümid qeyb oldu, ruhumda qaranquşlar ölən gündən...” ........... 17
“Bir mən kimi yalqız bulud ağlar göy üzündə...” ....................... 18
“Durmuşam sahildə tənha, bir dənizdir, bir də mən...” .............. 19
“Sinəm dar bir qəfəsdir, orda sevdalı ürək dustaq...” ................. 20
“Ver sərvətini, şöhrəti-şanı yel aparsın...”.................................. 21
“Nədəndir sakit olmaz, hər gün aramsız əsər xəzri...”................ 22
“Gecələr göydə səni çox gəzib axtardı yuxum...”....................... 23
“Mən ki öz şerimə bükdüm qəmi misra-misra...”...................... 24
“Məgər heyran olubdur hüsnünə, ey məhliqa kölgə...”............... 25
“Yatmışdı həqiqətdə o kəs ki hələ sağdır...”............................... 26
“Yollarda qalıbdır ala gözlər, səni gözlər...”............................... 27
“Suda qərq etsə də ey dil, məni-naçarı yağış...”.......................... 28
“Eşqə düşmüş, həm inildər, həm fəğan eylər saat...” ................. 30
“Zülmət içrə görünən şöləyə döndüm – yandım...”.................... 31
“Şeri yazdım ki biləm sənli sözüm kəldi sənə...”....................... 32
“Eşqdən ki ürəyimdə bu qədər yarə 3

qalıb...”.............................. 3
“Ürəyimdən başıma gündə ilanlar 3
sürünür...”............................ 4
“Bu həyat yolları ilə yeriyirsən, 3
böyüyürsən...”......................... 5
“Çatıbdı vaxtı, gedir son baharı 3
gəncliyimin...”......................... 6
“Gördüm səni bir qış gecəsi şam 3
işığında...”.............................. 7
“Ömür yolu bir varaq, yarı qara, yarı 3
ağ...”................................ 8
“Elə dünyaya düşdük ki qaralar  ağ yeyir - 3
doymur...”.............. 9
Səslər.......................................................................... 4
........ 0
Qünut.......................................................................... 4
...... 2
Yenə 4
də.......................................................................... 3
Gecə 4
kəpənəyi................................................................... 6

**************

Çapa imzalanıb: 17.03.2010.
Format: 70x100 1/32. Qarnitur: Times.
Ofset kağızı: əla növ. Həcmi: 3,25 s.ç.v. Tiraj: 1000.
Sifariş №28. Qiyməti müqavilə ilə.

**“Mütərcim” Nəşriyyat-Poliqrafiya Mərkəzi**
**Bakı, Rəsul Rza küç., 125**
**Tel./faks 596 21 44**
***e-mail: mutarjim@mail.ru***

**“525 Kitab” seriyasından**
**2009-cu ildə əsərləri nəşr olunan müəlliflər:**

***Dünya ədəbiyyatından***

İosif Brodski
Orxan Pamuk
Şota İataşvili

***Azərbaycan ədəbiyyatından***
Anar
Elçin
Ramiz Rövşən
Əjdər Ol
Ədalət Əsgəroğlu